# Biz Qərbi Azərbaycana da QAYIDACAĞIQ

**Bu il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasının açılışı Azərbaycanın ictimai həyatında çox əlamətdar hadisə oldu. Bu mərasimin Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin məhz doğum günündə keçirilməsi isə ikiqat təntənəyə çevrildi, icmanın fəaliyyətinin uğurla davam etdirilməsinə misilsiz bir xeyir-dua kimi qəbul edildi.**

Prezident İlham Əliyev hər il doğum günündə məcburi köçkünlərlə, qaçqınlarla, hərbçilərlə görüşür və bu ildönümünü məhdud çərçivədə – ailə üzvləri ilə qeyd edir. Biz çox qürur duyduq ki, dövlətimizin başçısı həyatının bu əziz günündə bu dəfə Qərbi Azərbaycan İcmasının təmsilçiləri ilə görüşdü, xalqımızın həyatında taleyüklü hərəkatlardan birinə dövlət səviyyəsində dəstək verdi. Prezidentin Qərbi Azərbaycan İcmasının doğma torpaqlara dönmək arzusunu alqışlaması, müdrik, uzaqgörən tövsiyə və tapşırıqlarını verməsi qaçqın taleyi yaşayan yüz minlərlə soydaşımızda böyük ümidlər, hədsiz məmnunluq doğurdu.

XX əsrdə Qərbi Azərbaycanda yaşayan soydaşlarımız erməni vəhşilikləri nəticəsində etnik mənsubiyyətlərinə görə 4 dəfə dədə-baba yurdlarından didərgin salınmışlar. Sonuncu – 1988-ci il deportasiyasından sonra bu insanların ictimai-mədəni birliyinə nail olmaq məqsədilə Azərbaycan Qaçqınlar Cəmiyyəti yaradılmışdı. Həmin cəmiyyətin bu ilin avqustunda Qərbi Azərbaycan İcması adı ilə yenidən təşkil edilməsi və məhz Qarabağın Azərbaycanlı İcması və Şuşa Rayon İcra Hakimiyyətinin binasında fəaliyyətə başlaması da bu icmanın qarşısında duran problemlərin həllinin dövlət siyasətinin prioritet istiqamətlərindən olmasının göstəricisidir.

Cənab Prezident bununla bağlı çıxışında dedi: “Bu binanın Qərbi Azərbaycan İcmasına ayrılması həm də ona görə önəmlidir ki, vaxtilə burada yerləşən Qarabağın Azərbaycanlı İcması və Şuşa Rayon İcra Hakimiyyəti bu mərhələni artıq başa vurub, öz missiyasını tamamlayıb. İndi onlar qayıdış mərhələsinə keçid ediblər. Yəni bu mənada Qərbi azərbaycanlıların da bir gün doğma torpaqlarına mütləq qayıdacaqları şübhə doğurmur. Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların nəvələri, nəticələri tarixi torpaqlarımız olan İrəvana, Göyçəyə, Zəngəzura, Ağbabaya qayıdacaqlar. Nəzərə almaq lazımdır ki, öz torpağına, elinə-obasına bağlı olan Azərbaycan xalqı üçün qayıdış ən ümdə məsələlərdəndir”.

Əslində, uzun onilliklər ərzində öz doğma torpaqlarını tərk etməyə məcbur olmuş Qərbi azərbaycanlılar müxtəlif qurumlarda birləşərək həmişə öz etirazlarını və tələblərini bildirmiş, bu məsələyə beynəlxalq səviyyədə diqqət cəlb etməyə cəhdlər göstərmişlər. Ötən illərdə bununla bağlı neçə-neçə qəzet, sayt yaradılmış, dədə-baba yurdumuzun tarixinə, adət-ənənələrinə və digər məsələlərə həsr edilmiş yüzlərlə məqalə, onlarla kitab yazılmışdır.

Ancaq nəyi, necə və nə vaxt etmək lazım olduğunu hamıdan yaxşı bilən cənab Prezident 30 ilə yaxın Ermənistanın işğalı altında olan Qarabağ və Şərqi Zəngəzur torpaqları azad edildikdən sonra Qərbi Azərbaycan İcmasının vahid bir qurumda birləşməsini məsləhət bilmiş, hərəkata sahib çıxaraq onun fəaliyyətinə şərait yaratmış, bu mübarizənin məhz indi vacib olduğunu nümayiş etdirmişdir. Həqiqətən də, 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Zəfər regionda hər kəsin hesablaşmaq məcburiyyətində olduğu bir reallıq ortaya qoymuşdur.



Prezident İlham Əliyevin icma təmsilçiləri ilə görüşdə proqram xarakterli çıxışından da aydın oldu ki, bu gün artıq qarşımızda daha böyük hədəflər – son 220 il ərzində Azərbaycanın tarixi torpaqlarında ermənilərin və onların havadarlarının soydaşlarımıza qarşı deportasiya, soyqırımı, etnik təmizləmə, bu ərazilərdə Azərbaycan tarixi-mədəni irsinin və izinin məhv edilməsi siyasətinin ifşası, Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması vəzifəsi durur: “İndi Qayıdış Konsepsiyası hazırlanmalıdır. Bu sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. ...Artıq iki ildir ki, müzəffər xalq kimi yaşayırıq. Tarixi Zəfəri qazanmış xalq kimi biz dünya miqyasında, doğrudan da, tamamilə yeni bir vəziyyət yaratdıq. İnamını itirmiş xalqlar da bu gün bizə inanırlar, bizə oxşamaq istəyirlər, bizim hərəkət etmək istəyirlər, bizimlə məsləhətləşirlər.”

Ölkə rəhbərinin çıxışı zamanı Qərbi Azərbaycanla və onun mərkəzi İrəvan şəhəri, bu tarixi torpaqlarımız haqqında söylədiyi mühüm fikirlər, bu ərazi ilə bağlı bütün məsələlərin sistemli şəkildə araşdırılması və bu tədqiqatların bir neçə dilə tərcümə edilərək dünya ictimaiyyətinə çatdırılması vəzifəsini önə çəkməsi xalqımız üçün elmi- siyasi, mənəvi-psixoloji əhəmiyyət kəsb edən ümummilli hədəf kimi qiymətləndirilməlidir: “Əlbəttə ki, bizim tarixi həqiqətlərlə bağlı kitablarımız yenilənməlidir. Müəyyən dövrdə kitablar dərc edilmişdir, o cümlədən tarixi şəhərlərimizin, kəndlərimizin adları ilə bağlı kitab dərc edilmişdir. Amma biz bunu dövlət səviyyəsində etməliyik. O kitablar bütün dillərə tərcümə edilməlidir. Onun yanında həm də elektron daşıyıcısı olmalıdır. Xarici dillərə tərcümə edilməlidir. Yəni, bu təbliğat işləri mütləq aparılmalıdır.”

Dövlət başçısı Qarabağ məsələsində özünün xalqa, orduya, dövlətə inamını nümunə gətirdi. Doğrudan da, 44 günlük Vətən müharibəsində biz bir millət olaraq dəmir yumruq kimi birləşdik və Müzəffər Ali Baş Komandanın nümayiş etdirdiyi polad iradə və qətiyyət ilə Zəfər qazandıq. Burada yalnız qarabağlılar, şuşalılar, kəlbəcərlilər yox, regionundan, milliyyətindən, dinindən, hətta siyasi baxışlarından asılı olmayaraq bütün xalqımız bir yerdə, bir əqidədə vuruşurdu. Qərbi Azərbaycan uğrunda mübarizədə də eyni milli birliyi nümayiş etdirməliyik.

Prezidentimiz bu məsələyə toxunarkən bildirdi ki, bizim məqsədimiz İrəvana tankla, topla getmək deyil, biz Ermənistana qarşı ərazi iddiası qaldırmırıq, bizim məqsədimiz, sadəcə, sülh yolu ilə, sivil qaydada öz dədə-baba torpaqlarımıza qayıtmaqdır. Prezidentin bu məsələlərin məhz dinc yolla, beynəlxalq hüquq normaları çərçivəsində baş verəcəyini vurğulaması Azərbaycanın sülhsevərliyini, beynəlxalq hüquq, ədalət prinsiplərinə sadiqliyini bir daha nümayiş etdirdi.

Ona görə də bundan sonra Qərbi Azərbaycandan olan ziyalılar Zəngəzurun, İrəvanın, Göyçənin, Qaraqoyunlu dərəsinin və digər yerlərin Azərbaycan ərazisi olduğunu bütün dünyaya çatdırmaq üçün əllərindən gələni etməlidirlər. Prezidentin qayıdış anonsu, önəmli mesajları bizi çox ümidləndirdi. İcmanın fəaliyyət göstərməsi üçün xüsusi binanın ayrılması və onun açılışında ölkə rəhbərinin iştirak etməsi, icma nümayəndələri ilə görüşdə etdiyi çıxış zamanı verdiyi tapşırıqlar strateji xarakter daşıyır və bütün xalqımız üçün mühüm əhəmiyyət kəsb edir. Dövlət başçısının Qərbi Azərbaycan torpaqlarına qayıtmaq üçün xüsusi bir konsepsiyanın hazırlanması barədə verdiyi tapşırıq siyasi və strateji xarakter daşıyan bir Qayıdış Proqramının hazırlanması barədə sifariş kimi qiymətləndirilməlidir.

Azərbaycan tarixini gözəl bilən möhtərəm Prezident dərin məzmunlu çıxışında baş vermiş hadisələrin xronoloji təsvirini verərək qeyd etdi: “1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi. 1948–1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalmışdır. Bu, sovet hökumətinin Qərbi azərbaycanlılara və bütövlükdə Azərbaycan xalqına qarşı törədilmiş növbəti cinayəti idi. Bu, eyni zamanda, böyük ədalətsizlik idi, vicdansızlıq idi.”

Onu da qeyd edək ki, Qərbi Azərbaycan – indiki Ermənistan ərazisində xalqımızın çox zəngin mədəni-tarixi irsi vardır. Bu da təsadüfi deyil, çünki əcdadlarımız minilliklər boyu bu ərazidə yaşayıblar. Orada mövcud olan qədim tikililərin hər biri – dini məbədlər, məscidlər və karvansaralar azərbaycanlılara məxsusdur. Məşhur Mərkəzi İrəvan meydanının alt hissəsi də Azərbaycan karvansaralarının qalıqlarıdır. Günü bu gün də arxeoloqlar, etnoqraflar araşdırma aparsalar, oradan yalnız Azərbaycana məxsus qalıqlar tapılacaq. Ermənilər həmin ərazinin üstünü torpaqla örtüb, asfalt çəkərək meydana çeviriblər.

Sadəcə olaraq, tarixi faktları saxtalaşdırmaq və yalan danışmaq ermənilərin xislətində var. Ancaq İrəvanın Azərbaycan şəhəri olduğunu xanlıqların tarixi də sübut edir. Tarixdən bilirik ki, 1747-ci ildə Mirmehdi xan, ondan sonra Hüseynəli xan, ardınca Hüseynəli xanın oğlu Məhəmməd xan Qacar, daha sonra Hüseynqulu xan Qacar və digərləri İrəvan xanları olublar. Bəs onda qapılarda nökərçilik edən tək-tük ermənini saymasaq, indi “qədim dövlət”dən dəm vuran ermənilər harada idilər?

Cənab Prezident Qərbi Azərbaycandakı kəndlərimizin əksəriyyətinin boş qalması, tədricən dağılıb getməsi ilə bağlı məsələyə toxunarkən dedi: “Azərbaycanlıların yaşadıqları yerlərin əksəriyyətində heç kim yaşamır. Ermənistanda bütövlükdə indi depopulyasiya dövrü hökm sürür”. 2000-ci ildə Azərbaycanın təhsil naziri kimi Avropa Şurasının Ermənistanda keçirdiyi tədbirdə iştirak edərkən öz kəndimizə gedə bilmişdim və şahid oldum ki, kənddə bir neçə ailədən başqa heç kəs yaşamır, onlar da yalnız qocalar, yaşlı adamlardır. Kəndlər, sözün həqiqi mənasında, uçulub dağılır, orada yaşayan ermənilər də özlərini kirayənişin kimi aparırlar, bilirlər ki, burada müvəqqəti sakindirlər.

Görüşdə Prezidentin səsləndirdiyi mühüm fikirlərindən biri də Qərbi Azərbaycanın tarixinə dair əsərlərin yazılması, onların xarici dillərə tərcümə olunması və dünyada yayılması ilə bağlı tövsiyə idi. Alimlər qarşısında mütəmadi olaraq qoyulan bu məsələ hazırkı dövrdə xüsusi aktuallıq kəsb edir və gələcəkdə yeni araşdırmalara təkan verəcək. Cənab Prezidentin də çıxışında əsas məqamlardan biri bu idi ki, irsimizə aid materialları toplayıb ortaya qoymalıyıq. Bu materialları beynəlxalq ictimaiyyətin və təşkilatların diqqətinə çatdırmalıyıq: “İndi baxın, görün, Cənubi Qafqazın digər ölkələrinə – Azərbaycanda, Gürcüstanda, bizim şəhərlərimizdə, əksər şəhərlərdə tarixi abidələr, tarixi mərkəzlər var. İstər Bakı olsun, Gəncə olsun, Naxçıvan, Şəki, Qəbələ, digər bütün şəhərlərdə. Bəs, necə ola bilər ki, İrəvanda tarixi mərkəz yoxdur? Qoy, bu sadə suala cavab versinlər. Cavab da gün kimi aydındır. Ona görə ki, bu tarixi mərkəz Azərbaycan xalqının tarixi irsi idi, hansı ki, onlar dağıdıblar. Şəhərsalma adı altında bütün tarixi binalarımız, o cümlədən İrəvan qalası, Sərdar sarayı dağıdılıb. Yəni, bütün bunlar göstərilməlidir. Yəni, siyasi və hüquqi tərəfdən başqa, istənilən məsələdə bunun tarixi mahiyyəti də əhəmiyyət kəsb edir. Ona görə bizim işimiz bu tarix üzərində qurulmalıdır”.

Bütün bu işlə, Prezidentin ziyalılar qarşısında qoyduğu vəzifə, ciddi tapşırıqdır. Ermənilər vandalizm törədərək İrəvandakı abidələrimizi dağıdıblar, lakin müxtəlif faktlar – sənədlər, xəritələr qalmaqdadır. Eyni zamanda, Qərbi Azərbaycanın elmi irsi araşdırılmalı, mədəniyyətini dünyaya tanıtmaq üçün fəal işlər görülməlidir. Cənab İlham Əliyev buna da münasibətini bildirdi: “Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu gün bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb”.



Prezidentin çıxışı son 220 il ərzində öz tarixi Vətənindən məhrum edilmiş Qərbi azərbaycanəsilli insanlarda öz ata-baba yurdlarına qayıtmaq üçün dərin bir ümid və inam yaratdı. Biz bir daha dərindən hiss etdik ki, Qərbi Azərbaycan məsələsi ümummilli məsələdir, bu coğrafiya son qarışına qədər Azərbaycanın tarixi torpaqlarıdır. Bu ərazidə tək İrəvan xanlığının yox, Qərbi Zəngəzurun timsalında Qarabağ xanlığının, Dərələyəz mahalının timsalında Naxçıvan xanlığının, Dilican və Qaraqoyunlu dərələrinin, Şəmşəddil sultanlığının timsalında Gəncə xanlığının, Borçalının dağlıq hissəsi yerləşir.




Azərbaycan lideri İlham Əliyevin çıxışının ana xəttini təşkil edən: “ Bu gün Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırılmalıdır. Qərbi Azərbaycan İcması bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır”,– bəyanatı hər bir Qərbi azərbaycanlı və bütün soydaşlarımız üçün bir çağırış kimi qəbul edilməlidir. Möhtərəm Prezidentimizin bir müdrik kəlamı da var: beynəlxalq hüquq güc deyil, güc beynəlxalq hüququdur. Əlbəttə, biz Qərbi Azərbaycan həqiqətlərini beynəlxalq müstəviyə çıxarmalıyıq. Erməni yalanlarını, saxtakarlıqlarını sona qədər ifşa etməliyik. Burada 1988–1991-ci illərdə Qərbi Azərbaycandan qovulan soydaşlarımıza dəyən maddi və mənəvi ziyandan bugünkü mənəvi iztirablara qədər hər şey nəzərə alınmalıdır.

Möhtərəm Prezidentimiz bütün incəliklərə, qarşıda duran vəzifələrə, hədəfə çatmaq üçün görülməli işlərə təfərrüatı ilə toxunaraq Qərbi Azərbaycanla bağlı bir konsepsiya yaratdı: “Hesab edirəm ki, ildə bir dəfə, ya da iki ildən bir Bakıda Qərbi Azərbaycanla bağlı beynəlxalq konfrans keçirilməlidir. Biz özümüz üçün dost saydığımız ölkələrdən alimləri, arxeoloqları, tarixçiləri dəvət edəcəyik ki, mötəbər bir beynəlxalq konfrans keçirək, bunu təqdim edək. Yəni, bir çox addımlar atılmalıdır ki, bu mövzu gündəlikdən çıxmasın, əksinə, bu mövzu beynəlxalq gündəliyə daxil edilsin”. Və yaxud: “Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır”.

Müasir dövrümüzdə əsas silahımızın informasiya olduğunu unutmamalı, məqsədimizə nail olmaq üçün, bəlkə də, ikiqat funksiya yerinə yetirməliyik: həm artıq formalaşmış yanlış informasiyanı yenisi ilə əvəz etmək, həm də cəmiyyətə tamamilə yeni informasiya ötürmək. Biz hələlik birinci, ağrılı mərhələdəyik. Təəssüf ki, xristianpərəstliyin doğurduğu erməni təəssübkeşliyi dünyada pik həddə çatıb. Biz formalaşmış təəssüratları pozub yeni fikir təlqin və həqiqəti təbliğ etməliyik. Bu, çox çətin proses olsa da, öhdəsindən gələcəyimizə inanırıq. Əlbəttə, bu məsələ geniş mənada təkcə Qərbi azərbaycanlıların yox, bütün Azərbaycan xalqının, hətta bütöv türk dünyasının problemidir, Qarabağ məsələsi kimi mənəvi problem, şərəf və ləyaqət dəyəridir.

Fikrimizcə, bu məsələnin həlli istiqamətində tədricən, mərhələ-mərhələ, ancaq sistemli şəkildə işlər görülməlidir. Uzun müddət təhsil sistemində çalışdığıma görə düşünürəm ki, bu tarixi həqiqətlər orta məktəb dərsliklərinə daxil edilməlidir, xalqımız Qərbi Azərbaycan həqiqətlərinə uşaqlıqdan bələd olmalıdır. Qarabağda qazanılan qələbədə Müzəffər Ali Baş Komandan başda olmaqla bütün xalqımızın mütəşəkkil iştirakını həlledici amil hesab edirəm, bununla belə düşünürəm ki, siniflərdə asılan “Qarabağı unutma” plakatları, ərazilərimizin işğal tarixi ilə bağlı məlumat lövhələri, Qarabağla əlaqədar müəllimlərin keçdiyi dərslər, məktəblərdə baş tutan tədbirlər də az rol oynamayıb.

Bu gün həmin təbliğatı Qərbi Azərbaycana yönəltməli, siniflərdə bütöv Azərbaycanın xəritəsi, soydaşlarımızın doğma yurdlarını tərk etdiyi tarixlər, deportasiya illəri, boşaldılmış ərazilərin adları və s. bu kimi məlumatlar yer tapmalıdır. Qoy gənclərimiz vətənimizin yalnız 86,6 min kvadratkilometrdən ibarət olduğunu yox, bir zamanlar vahid Türk dünyasının mərkəzində yerləşərək Türkiyə ilə Orta Asiyanı birləşdirən bir məmləkət olduğundan xəbərdar olsunlar.

Fəxrlə qeyd edirik ki, ölkə başçımızın sinədən söylədiyi dərin məzmunlu, geniş tarixi çıxışı hər bir azərbaycanlı kimi ziyalılarımızı da qürurlandırdı. Dövlət başçısının bu çıxışını Qərbi Azərbaycana qayıdışımızın yol xəritəsi hesab edirik. Onun qarşımıza qoyduğu vəzifələri yerinə yetirmək üçün var qüvvəmizlə çalışmalıyıq. Ölkə rəhbərinin müəyyən etdiyi bu müqəddəs vəzifələri gerçəkləşdirmək üçün böyük gücə və qüdrətə malik Azərbaycan xalqının səfərbər olacağına qətiyyətlə inanırıq. Çünki Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Qarabağ məsələsini özü həll edən bu böyük xalq inanırıq ki, Qərbi Azərbaycana qayıdış məsələsini həll etməyə, Cənubi Azərbaycanın haqq davasına təsirli dəstək verməyə qadirdir.

Prezident İlham Əliyev Qərbi Azərbaycana qayıdışın anonsunu verməklə, həmişə olduğu kimi, yenə də ədalətin bərpası üçün çalışdığını sübut etdi. İnanırıq ki, həyata keçirilən tədbirlərin, reallaşdırılan böyük layihələrin nəticəsində biz bir gün Qərbi Azərbaycana qayıdacağıq. Bu, bizim tarixi-mənəvi və insani haqqımızdır. Burada qeyri-qanuni heç nə yoxdur, insanlar öz doğma yurdlarına qayıtmaq, öz evlərində yaşamaq istəyirlər. Bunu heç kəsə qadağan etmək olmaz. Bunun üçün əzmlə çalışmalı və Prezidentimizin bu məsələ ilə bağlı tapşırıqlarını dəqiq icra etməliyik.

Əminik ki, sevimli rəhbərimiz İlham Əliyevin rəhbərliyi ilə digər taleyüklü məsələlər kimi, Qərbi Azərbaycana qayıdış hərəkatı da zəfərlə başa çatacaq və soydaşlarımız doğma torpaqlarına qayıdacaqlar.

**Misir MƏRDANOV,**
**Qərbi Azərbaycan İcması**
**Müşahidə Şurasının sədri**